# “Açıq kitabxana” layihəsi və səyyar kitabxana xidməti

Yay mövsümü ilə əlaqədar respublikamızda gözəl bir ənənənin də əsası qoyulub. Mədəniyyət və Turizm Nazirliyi Milli Kitabxananın kollektivi ilə birgə paytaxt Bakıda və bölgələrdə “Açıq kitabxana” layihəsi həyata keçirir. Milli Kitabxana binasının Rəşid Behbudov küçəsinə baxan hissəsindəki kiçik, kölgəli bağçada gün ərzində fəaliyyət göstərən mütaliə guşəsi ziyalıların ürəyincə olmuşdur. Belə ki, kitab mütaliəsi ilə məşğul olmaq istəyən hər bir oxucu günün istənilən vaxtında bu guşəyə çəkilərək rahatlıqla kitablarla baş-başa qala bilir.

Layihənin maraqlı cəhəti ondadır ki, oxucular kitabları həm “Açıq kitabxana”dakı rahat kreslolarda əyləşib oxuyur, həm də heç bir qeydiyyatsız-sənədsiz götürüb özləri ilə mənzillərinə apara bilirlər. Üstəlik, layihənin tərkib hissəsi olan “Mən oxudum, sən də oxu” devizinə uyğun olaraq, vətəndaşlar evlərindəki oxunmuş kitablarını gətirib başqa oxucuların istifadəsi üçün buradakı müasir dizaynlı, yağışdan, küləkdən qorunan rəflərdə saxlanmaq üçün təhvil verirlər. Əvəzində isə başqa bir kitab götürmək imkanı qazanırlar. Bu, kitabdəyişmə proseduru oxucular üçün çox faydalıdır.

Yazarlar bu bağçada öz yeni kitablarını satış üçün təqdim edə bilirlər. Eyni zamanda, burada ölkədə və xaricdə çap olunan kitabların sifarişini vermək mümkündür. Uşaq guşəsinə, dövri mətbuat bölməsinə və milli musiqi guşəsinə maraq daha böyükdür. Oxucular həmçinin gündəlik mətbuatla çox asanlıqla tanış olurlar. Hətta vaxtını səmərəli keçirmək istəyən turistlər və şəhərimizin qonaqları da həmin guşələrə tez-tez qatılırlar.

Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətindən redaksiyamıza verilən məlumatda bildirilir ki, gələcəkdə burada açıq səma altında poeziya gecələri, mütaliə axşamları, yazıçı və şairlərlə, kino, teatr və incəsənət xadimləri ilə görüşlər, yeni kitabların təqdimatı, imza günləri və s. müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Sevindirici haldır ki, “Açıq kitabxana” layihəsi artıq respublikamızın bölgələrində, önəmli ünvanlarda da oxucularla ünsiyyət yarada bilib. Tələsən dünyada sakitlik və düşüncə mənbəyi kimi tanınan kitaba maraq bölgələrimizdə də üstünlük təşkil edir. Layihə çərçivəsində ötən həftə Quba Turizm İnformasiya Mərkəzi və MKS-nin mərkəzi kitabxanasının birgə təşkilatçılığı ilə rayon ərazisində fəaliyyət göstərən “Terrace” istirahət mərkəzində səyyar kitabxana sərgisi təşkil olunub. Kitab sərgisi rayon sakinləri, yerli və xarici turistlər tərəfindən maraqla qarşılanıb. Ağstafa rayon mərkəzi kitabxanası tərəfindən şəhərin Heydər Əliyev prospektində təşkil olunan “Mütaliə həftəsi”ndə müxtəlif mövzularda kitab sərgiləri təşkil edilib. Sərgilərdə 900-ə yaxın Azərbaycan ədəbiyyatı, 8 adda qəzet, jurnal və xeyli sayda müxtəlif dillərdə çap məhsulları oxuculara təqdim olunub. Tərtər rayon MKS-nin uşaq şöbəsinin “Yay məktəbi” layihəsi çərçivəsində “Uşaqlar bizim gələcəyimizdir” başlıqlı “Kitabları sevək” devizi altında keçirdiyi tədbirdə müxtəlif yaş qrupundan olan xeyli sayda məktəbli kitabxanaya üzv olub. Balacalar üçün yaradılmış “Nağıl otağı” daha maraqla qarşılanıb. Uşaqlara nağıllar oxunub, “Ən məlumatlı gənc”, “Ən çox mütaliə edən yeniyetmə” nominasiyaları üzrə müsabiqədə fərqlənənlərə hədiyyələr təqdim olunub. Şamaxı rayon MKS-nin mərkəzi kitabxanası və Şərədil kənd kitabxana filialının “Şamaxı Place” hotelində keçirdiyi səyyar tədbirdə isə turistlər “Azərbaycan tarixi”, “2016-cı il Multikulturalizm ilidir”, “Şamaxı şairlər vətənidir”, “Şamaxı gözəlliklər diyarıdır” və elektron nəşrlərdən ibarət “Danışan kitablar” başlıqlı sərgilərlə tanış olublar.

“Açıq kitabxana” layihəsi çərçivəsində Zərdab, Qazax, Astara, Hacıqabul, Xızı və digər rayonlarda keçirilən tədbirlər kitabsevərlər və yerli əhali tərəfindən rəğbətlə qarşılanıb.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***